# Taleyimin şəhəri

**Gecən parlaq, gündüzün ağ,**
**Ay camalın, günəş gözün,**
**Əsrləri qabaqladın,**
**Amma gəncsən hələ özün.**

Səksən dörd illik ömrümün altmış iki ilini gənc nəslin təlim-tərbiyəsinə, maariflənməsinə, dünya görüşünün formalaşmasına sərf etmişəm. Onun 50 ili Sumqayıtla bağlıdır. Dərs dediklərimdən müxtəlif peşə sahibləri, ictimai xadimlər, müəssisə rəhbərləri, idarə və təsərrüfat rəhbərləri, elmlər doktoru, elmlər namizədi çoxdur.

Mən Sumqayıta gələndə onun cəmi 20 yaşı var idi. 50 ildir gənclik, gözəllik şəhəri Sumqayıtda yaşayıram. 50 il az ömür deyil, bir igidin ömrü deyərlər buna. 50 gül üzlü bahar, günəşli yay, qızıl payız, şaxtalı qış yola salmışam Sumqayıtdan. Bu illər ərzində bir çox hadisələrin canlı şahidi olmuşam. Yaşa dolduqca bərkə-boşa düşmüşəm, bərkimişəm, püxtələşmişəm. Həyatım müxtəlif hadisələrlə zəngindir. Əvvəla xalqımızın başına gətirilən bəlalar, məşəqqətlər, milli- mədəniyyətimizə vurulan zərbələr, mənəvi dəyərlərimizə uzanan yırtıcı əllər, düşmənlərimizin törətdiyi faciələr və terror aktları məni varımdan yox edib. Üzümü sözə tutmuşam, qələmə güvənmişəm, dərdimi dağıtmaqdan ötrü təsəllimi sənin füsunkar gözəlliyindən almışam, doğma məkan. 50 ildir ürəkdən vurulduğum, cazibəsinə heyran olduğum, gənclik, kimyaçılar, inşaatçılar, iri sənaye, alimlər, ziyalılar, qəhrəmanlar şəhəri olan Sumqayıtda yaşayıram. Yurdum-yuvamdı, teleyimdi Sumqayıt. Həyatımda çox mühüm rol oynayan dostumdur, gəncliyimdir, köməkçim, ilhamımdır, poeziyam, nəğməm, bayatım, yaradıcılığımdır, gücüm, qüdrətimdir, təbimdir Sumqayıt. Ayağı torpaqda möhkəm dayanan, göydələnləri ilə göylərə meydan oxuyan, taleyi, hünəri nura boyanan ziyarətgahım, səcdəgahım, müqəddəs ocağım, bərəkətli bucağım, Kəbəm, Kərbəlam, dinim, imanım, haqqa inamımdı mənim gözəl Sumqayıtım. Sumqayıt mənim üçün şirin varlıqdı. Ona görə ki, otuz kitabım, Sumqayıt Dövlət Musiqili Dram teatrında tamaşaya qoyulan on səhnə əsərim, 571 elmi-publisistik, metodiki məqalələrim məhz səndə ərsəyə gəlib, doğma diyar. Respublikanın böhranlı vaxtlarında 84 dəfə cəbhə bölgələrinə səndən getmişəm. Qubadlıda, Laçında, Cəbrayılda, Zəngilanda, Fizulidə, Ağdamda, Qazaxda, Goranboyda, Nafatalanda, Tərtərdə, Kəlbəcərdə olmuşam. 14 dəfə Milli qəhrəman Əlyar Əliyevin batalyonunda, 12 dəfə Laçında əsgərlərə ürək-dirək vermişəm, kitablarımı onlara bağışlamışam. Ağdamın Güllücə, Çəmənli, Xındırıstan bölgələrinə səfər etmişəm. Snayperlərin susmadığı olan vaxtı Güllücədə əsgərlərlə səngərdə yatmışam. Bərdədən Sumqayıta 3 şəhid gətirmişəm.



**Min dəfə çıxmışam alovdan, oddan,**
**Təmənnam olmayıb yaxından, yaddan,**
**Həmişə qaçmışam natəmiz addan,**
**Məhəbbət vətənə bağlayıb məni.**

Əsgərlərdə vətənə məhəbbət, düşmənə nifrət hisslərini oyatmağa çalışmışam. Iki dəfə-1984-cü ildə İctimai Faydalı Əməyin Həyata Tətbiqi, 2000-ci ildə Təlimdə Ənənəvilik və Müasirlik barədə təcrübəmi sənin qoynunda qazanmışam. Buradan təcrübəm sənin sinəndə boy atan, genişlənən, inkişaf edən məktəblərdə yayılıb gözəl şəhərim. Yeni Azərbaycan Partiyasının ilk təşəbbüskarı və yaradıcılarından biri olmağım da, "Qabaqcıl Təhsil İşçisi" döş nişanına layiq görülməyim də, möhtərəm prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə "Tərəqqi medalı" ilə təltif olunmağım da, "Qızıl qələm" medya mükafatı laureatı adını qazanmağım da,Ulu Öndər Heydər Əlirza oğlu Əliyevə, möhtərəm prezidentimiz İlham Heydər oğlu Əliyevə yazdığım açıq məktublarda Səndən bəhrələnib, əziz Sumqayıtım.

**Aydan nur almısan, günəşdən ziya,**
**Sən görən gözümsən, gözüm, Sumqayıt.**
**Illərin qoynunda çatdım arzuya,**
**Sənə fəda olum özüm, Sumqayıt.**

Hacı Zeynalabdin Tağıyev qəsəbəsində iki dəfə qəsəbə sovetinə, iki dəfə Sumqayıt şəhər sovetinə deputat seçilmişəm.

6 çağırış YAP-ın, 5 çağırış Azərbaycan Müəllimlərinin, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Ziyalılar Birliyinin, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının, Azərbaycan Aşıqlar Birliyinin qurultaylarına nümayəndə kimi sənin qucağından getmişəm, gözəl şəhər.

Hazırda Azərbaycanın qabaqcıl, çox nüfuzlu ali məktəblərindən birində, hər cürə şəraiti olan, dünyada tanınan, Sumqayıt Dövlət Universitetində pedaqoji fəaliyyətimi davam etdirməyim də, Azərbaycan Ziyalılar Cəmiyyətinin Sumqayıt Təşkilatına sədr seçilməyim də, Azərbaycan Yazıçılar birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Aşıqlar Birliyinin üzvü olmağım da sənin qoynunda baş tutub, taleyimin şəhəri.

Sən mənim ömrümün mənası, solmaz naxışları, silinməz izlərisən. Fəxr edirəm ki, səninlə boy atmışam. Sənin isti qucağında arzu-kama çatmışam. Ürəklərin hökmü ilə qurub-yaratmağa axışıb gələn gənc oğlan və qızların yaratdıqları möcüzəli bir möhtəşəm şəhərsən, Sumqayıt.

**Ay əli ilə qələm çəkib qaşına,**
**Bərəkəti Günəş töküb başına,**
**Yaman gəlib göy Xəzərin xoşuna,**
**Xəzər kimi sonsuzlaşır Sumqayıt.**
**Qocaldıqca cavanlaşır Sumqayıt.**
**Qəhrəmanlıq şəhəridir mənim şəhərim.**

Əmək bahadırları, sosialist əməyi qəhrəmanları, qəhrəmanlıq zirvəsini məhz sənin müəssisələrində fəth ediblər. Ürəklərdə özlərinə əbədi abidə ucaldıblar.

**Fəhlə qardaş, gözün aydın,**
**Zəhmətinlə gülür Vətən,**
**Doğma yurdun Sumqayıtı,**
**Öz əlində böyüdürsən.**

Illər keçdikcə varlığınla öyünmüşəm. Sənin doğmalığını, əzmini , əzəmətini daha dərindən duymuşam. Haraya, haçan ayaq bassam sənin nəfəsini hiss etmişəm, sənsiz darıxmışam, qoynuna can atmağa tələsmişəm. Sənin park və xiyabanların, yaşıllıqların, təmizliyin, gələn turistləri valeh edir. Sən təsəvvür edilməz tikinti meydanı, nəhəng quruculuq şəhərisən. Burada insanlar can deyib, can eşidirlər. Hərənin bir diyardan gəlməsinə baxmayaraq hamı mehriban ailə kimidir.

**Əl bir olub, dil bir olub hamı burda,**
**Şirinləşib ağzımızın dadı burda, tamı burda.**

Mən də həmyaşıdlarım kimi sənin abadlığında, quruculuğunda ürəkdən iştirak etmişəm, özümə yaxın dostları, sirdaşları səndə tapmışam. Ev-eşik sahibi, oğul-qız yiyəsi olmuşam, gəlin gətirib, qız köçürmüşəm. Şirin-şəkər nəvələrim, nəticələrim, burda dünyaya gəlib, gözəl məkan.

**Hər bir Sumqayıtlı öz doğma şəhərinin göz oxşayan, könül sevindirən, mənzərəsini seyr etdikcə, qəlbi qürur və təpər hissi ilə dolub sinəsinə sığmır. Axı bu şəhər onun doğma məskəni, isti yuvasıdır. Bu şəhər mənim, sənin, sizin, bizim, bir sözlə hamımızın şəhəridir, hamımızın əbədi məkanıdır. Onu sevək və sevdirək. Yaşıllıqları, təmizliyi qoruyaq. Belə gözəl şəhərdə yaşamağımızla qürur duyaq, fəxr edək, hər birimiz sağlam əməyimizlə ona töhfə verək.**

**Əvəz Mahmud Lələdağ**
**SDU-nun müəllimi**



Ədalət.-2019.-8 oktyabr.-S.4.